# "Sədaqət və saflıq simvolu": mənalı ömrün salnaməsi

## GÖRKƏMLİ DÖVLƏT XADİMİ MUSA MƏMMƏDOVA HƏSR EDİLMİŞ KİTABIN TƏQDİMATI OLUB

Sentyabrın 2-də görkəmli ictimai və dövlət xadimi Musa Məmmədovun xatirəsinə həsr olunmuş "Sədaqət və saflıq simvolu" kitabının təqdimat mərasimi keçirilib. Tanınmış ictimaiyyət nümayəndələrinin, mərhumun ailə üzvləri və jurnalistlərin iştirak etdikləri tədbiri kitabın redaktoru, filologiya elmləri doktoru Abid Tahirli açaraq, "Sədaqət və saflıq simvolu"nun yaranması ideyası, onun üzərində aparılmış yaradıcılıq işi barədə məlumat verib. A.Tahirli həyat və fəaliyyət yolu ilə böyük rəğbət, dərin ehtiram qazanmış M.Məmmədovun aqronom, alim, ziyalı və rəhbər kimi malik olduğu müstəsna keyfiyyətləri barədə danışıb: "İnsan da təbiət kimidir. Təbiət yazda çiçək açır, yaya doğru yaşıllaşır, payızda bəhrə verir, qışda ağ yorğanına bürünüb dincəlir və hər il yazda bu ənənə təzədən təkrar olunur. Təəssüf ki, təbiətlə insan arasındakı bənzəyişlə yanaşı, bir fərqlilik də var: insan təbiət kimi təzədən doğula bilmir. O, bir dəfə yaşayır, bir dəfə çiçək açıb bar verir və vaxtı çatanda dünyaya "əlvida" deyib gedir. Lakin elə xoşbəxt insanlar var ki, onlar bu dünyaya "əlvida" deyəndən sonra da unudulmur, dostları, həmkarları, onu tanıyanlar, doğmaları, ailə üzvlərinin ürəyində özünə əbədiyyət heykəli qoyur və hər dəfə xatirələri, söz-söhbətləri yada düşdükcə nurlu siması illərin arxasından boy göstərir, sanki bu xatirələr, yadasalmalarla yenidən sıralarımıza qayıdırlar. Uzun illər müxtəlif rəhbər vəzifələrdə işləmiş Musa Məmmədov məhz belə unudulmaz və hər zaman xatırlanan şəxsiyyətlərdəndir".

İqtisad elmləri namizədi Namiq Murad, Əməkdar kənd təsərrüfatı işçisi İmran Əbilov, ictimai-siyasi xadim, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri Arif Rəhimzadə və başqaları çıxış edərək iqtisad elmləri doktoru, kənd təsərrüfatı elmləri namizədi, Dövlət mükafatı laureatı Musa Məmmədovun vətəndaş yanğısı, torpağa olan məhəbbətindən söz açıb, kitabda onun xarakterinin bu keyfiyyətlərinin hərtərəfli əks olunduğunu vurğulayıblar. Ömrü boyu torpaq sevgisi ilə yaşamış Musa müəllimin bu fikirləri diqqətə çatdırılıb: "Təbiətin bizə bəxş etdiyi ən qiymətli sərvət torpaqdır. Torpaq bizim "çörək ağacımız"dır, həm də yaşayışımızın əsasını təşkil edir. Torpaq bizim üçün əzizdir, doğma və müqəddəsdir, torpaq Vətən deməkdir". Bildirilib ki, bu düşüncələr kənd təsərrüfatı və meşə təsərrüfatının müxtəlif sahələrinin inkişafı ilə əlaqədar 40 elmi əsərin, monoqrafiya, kitab və 5 ixtiranın müəllifi Musa Məmmədovun həyatından qırmızı xətlə keçir və həqiqətən torpaq onun ən böyük sevgisi idi.



Müxtəlif vaxtlarda M.Məmmədovla bir yerdə işləmiş Həmzə Məlikov, Zahid Abbasov, Xəndan Rəcəbli, Alimşah Mirzəyev və başqaları çıxışlarında mərhumla xatirələrini bölüşüblər.

Gənc şair Fatimə Vəfa M.Məmmədovun xatirəsinə həsr etdiyi şeirini oxuyub.

Təqdimat mərasimində tibb üzrə fəlsəfə doktoru Günel Məmmədova atasının xatirəsini əziz tutduqları üçün tədbir iştirakçılarına və çıxışçılara təşəkkürünü bildirib.

525- ci qəzet.- 2023- cü il.- 5 sentyabr.- S. 9.